AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ DOKTORANTURA VƏ DİSSERTANTURA TƏHSİLİ, MƏZMUNU, TƏŞKİLİ VƏ QƏBULLA BAĞLI SƏNƏDLƏRİN VERİLMƏSİ QAYDALARI

1. Ümumi müddəalar

1.1. Bu qaydalar Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra ATMU) doktoranturanın yaradılması, qəbul qaydaları, doktorantura təhsilinin məzmunu və təşkili ilə bağlı kompleks məsələlərin həlli məqsədi ilə qəbul edilir.

1.2. Azərbaycan Turizm və Menecment Universitetində yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura yolu ilə həyata keçirilir və doktorantura təhsilinin təşkilində Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin sərəncamları, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnaməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar və sərəncamları, “Təhsil haqqında” Azərbaycan Respublikası Qanunu, "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) rəyasət heyətinin qərarları, qüvvədə olan digər müvafiq qanunvericilik aktları və bu Əsasnamə rəhbər tutulur.

2. Doktoranturaların yaradılması

2.1. Doktoranturaların yaradılması haqqında vəsatət Azərbaycan Turizm və Menecment Universitetinin sifarişi əsasında Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunur, Azərbaycan Milli Elmlər Akademiyasının (bundan sonra- AMEA) və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra-Nazirlik) rəyləri əsasında təsdiq edilir.

2.2. Vəsatətə Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasının qərarı əlavə olunur. Qərarda doktorantura təhsili üçün nəzərdə tutulan ixtisasların siyahısı və müvafiq elmi potensialın mövcudluğu göstərilir.

3. Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura

3.1. Azərbaycan Turizm və Menecment Universitetinin Fəlsəfə doktoru proqramı üzrə doktoranturasına ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları və əcnəbi və vətəndaşlığı olmayan şəxslər imtahanlar əsasında qəbul olunurlar.

3.2. Doktoranturanın (keçmiş aspiranturanın) tam kursunu bitirən şəxs eyni ixtisas üzrə təkrarən doktoranturaya qəbul oluna bilməz.

3.3. Azərbaycan Turizm və Menecment Universitetində doktoranturaya qəbul Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən müddətlərdə hər il keçirilir.

3.4. Sənədlərin qəbulu üçün Azərbaycan Turizm və Menecment Universitetinin rektorunun (və ya elmi işlər üzrə prorektorun) sədrliyi ilə qəbul komissiyası yaradılır. Qəbul komissiyası fakültə, kafedra, şöbə, bölmə, laboratoriya rəhbərlərindən, aparıcı əməkdaşlardan və bir qayda olaraq da doktorantların nəzərdə tutulan rəhbərlərindən təşkil olunur.

3.5. Azərbaycan Turizm və Menecment Universitetinin doktoranturasına qəbul olmaq istəyən şəxslərin ixtisas uyğunluğu qəbul komissiyası tərəfindən müəyyən edilir.

3.6. Azərbaycan Turizm və Menecment Universitetində doktoranturaya qəbul olmaq istəyən şəxslə nəzərdə tutulan elmi rəhbər müsahibə keçirir və rəhbərliyi həyata keçirmək barədə razılıq və ya imtina qərarını yazılı surətdə qəbul komissiyasına təqdim edir. İmtina olunduğu halda digər elmi rəhbər təklif edilir.

3.7. Azərbaycan Turizm və Menecment Universitetinin doktoranturaya qəbul komissiyası nəzərdə tutulan rəhbərin rəyi və təqdim edilən digər sənədlər əsasında imtahanlara buraxılmaq haqqında qərar qəbul edir və bu barədə bir həftədən gec olmayaraq iddiaçıya bildiriş göndərir. Bildiriş Azərbaycan Turizm və Menecment Universitetinin doktoranturaya qəbul komissiyasının sədri (və yaxud səlahiyyətli

digər rəhbər şəxs) tərəfindən imzalanır və bu bildiriş iş yerindən məzuniyyət almaq hüququ verir.

3.8. Azərbaycan Turizm və Menecment Universitetində doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar. Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – DİM) tərəfindən keçirilir. Xarici dil üzrə imtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı AMEA və Naziriklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir. Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

3.9. Fəlsəfə fənni üzrə imtahan Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən keçirilir. İmtahanın nəticəsi “məqbul” və ya “qeyri-məqbul”la qiymətləndirilir. İmtahanın məzmunu (proqramı) AMEA və Nazirlik tərəfindən birgə müəyyənləşdirilir.

3.10. İxtisas fənnindən qəbul imtahanını Azərbaycan Turizm və Menecment Universitetinin rəhbəri tərəfindən yaradılan komissiya həyata keçirir və imtahana yalnız fəlsəfə fənnindən “məqbul” alan şəxslər buraxılırlar. Komissiyanın tərkibində müvafiq ixtisas üzrə ən azı iki elmlər doktoru və ya professor olmalıdır. Nəzərdə tutulan elmi rəhbərlər də komissiyanın üzvü ola bilərlər. Komissiyanın sədri ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın rəhbəri, yaxud elmi işlər üzrə müavini təyin edilir. Bəzi ixtisaslar üzrə elmlər doktorları və professorlar olmadıqda, müvafiq olaraq komissiyanın tərkibinə Elmi Şuranın qərarı ilə müvafiq ixtisasa malik fəlsəfə doktorları (elmlər namizədləri) və dosentlər daxil edilir.

3.11. Azərbaycan Turizm və Menecment Universitetində doktoranturaya qəbul zamanı bərabər ballar toplandığı halda, müsabiqədə ixtisas fənnindən daha yüksək qiymət alan və ixtisas üzrə daha çox çap edilmiş elmi əsərləri olan şəxslərə üstünlük verilir.

3.12. Azərbaycan Turizm və Menecment Universitetində yaradılmış qəbul komissiyası imtahanların nəticələri əsasında müvafiq qərar qəbul edir. Qərar barədə məlumat şəxsin ərizəsində göstərdiyi ünvana və ya elektron poçt ünvanına göndərilir.

3.13. Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurası doktorantların dissertasiya mövzularını və elmi rəhbərlərini onların qəbul komissiyaları tərəfindən doktoranturaya qəbul olunmaları haqqında qərar qəbul etdikləri gündən 1 aydan gec olmamaq şərtilə təsdiq edir. Dissertasiya ilə bağlı tədqiqat işlərinin iki müxtəlif təşkilatda və ya iki ixtisas üzrə aparılması planlaşdırıldıqda, elmlər doktoru, yaxud fəlsəfə doktoru elmi dərəcəsi olan iki rəhbər təyin oluna bilər.

3.14. Dissertasiyaların mövzularını Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasının təqdimatı əsasında Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası hər bir iddiaçı üçün ayrılıqda təsdiq edir və ya dəyişdirir.

3.15. Elmi rəhbər və dissertasiya mövzusu təsdiq olunduqdan sonra doktorant ixtisasına, dissertasiya mövzusuna, tədqiqat və ya maraq sahəsinə və s. uyğun olaraq doktoranturada təhsil üzrə Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən qəbul edilmiş tədris planında nəzərdə tutulmuş siyahıdan elmi rəhbərinin razılıq və tövsiyəsi də nəzərə alınmaqla ümumilikdə 6-10 ixtisas fənni seçir.

3.16. Doktorantın tədris planında hər bir fənn üzrə yekun qiymətləndirmənin nəticəsi müsbət olduqda o fənn üzrə müvafiq kredit toplanmış hesab olunur. Hər hansı bir semestr üzrə əvvəlcədən seçilmiş fəndən müvafiq kredit toplanmadıqda növbəti semestr (və ya növbəti tədris ilinin müvafiq semestri) o fənn təkrar seçilir. Sözü gedən fənnin dəyişdirilərək başqa bir fənlə əvəz edilməsi barədə doktorantın müvafiq kafedraya yazılı müraciətinə kafedranın iclasında baxılır və iclasın qərarı müsbət olduqda məsələ Fakültə Elmi Şurasının (və ya Tədris-Metodik Şuranın) yekun qərarına əsasən öz həllini tapır.

3.17. Doktoranturaya qəbul təsdiq edilmiş plan əsasında Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsinə uyğun olaraq rəsmiləşdirilir.

3.18. Azərbaycan Turizm və Menecment Universitetində doktoranturaya qəbul haqqında qərarın (əmrin) surəti doktoranturaya istehsalatdan ayrılmaqla qəbul olunmuş şəxs ilə işəgötürən arasında olan əmək müqaviləsinə xitam vermək üçün əsasdır.

3.19. Doktoranturaya istehsalatdan ayrılmaqla qəbul olunan şəxslərin əmək kitabçası Azərbaycan Turizm və Menecment Universitetinə təqdim edilir.

3.20. Azərbaycan Turizm və Menecment Universitetində doktoranturaya qəbul haqqında qərarda (əmrdə) doktorantın dissertasiyasının mövzusu, təhsil müddəti və rəhbəri (rəhbərləri) göstərilir və onlara bu haqda məlumat verilir. Bir qayda olaraq, doktorantın elmi rəhbəri elmlər doktoru və ya professor olur.

3.21. Müstəsna hallarda, Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasının qərarı əsasında müvafiq ixtisasa malik fəlsəfə doktorları (elmlər nanizədi) da doktorantlara elmi rəhbərlik işinə cəlb oluna bilərlər.

3.22. Müxtəlif ixtisasları əhatə edən mövzular üzrə elmi tədqiqatlar apararkən doktoranta iki elmi rəhbər, yaxud rəhbər və məsləhətçi təyin oluna bilər. Onlardan biri fəlsəfə doktoru (elmlər namizədi) ola bilər.

3.23. Elmi rəhbər doktoranta elmi iş üzrə məsləhətlər verir, doktorantın təsdiq edilmiş fərdi iş planına (tədris proqramına) uyğun fəaliyyətinə rəhbərlik edir və dissertasiya işinin müəyyən olunmuş vaxtda keyfiyyətlə yerinə yetirilməsinə nəzarət edir.

3.24. Bir elmi rəhbərə təhkim olunan doktorantların sayı beş nəfərdən artıq olmamaq şərtilə, Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurası tərəfindən müəyyən olunur və ATMU-nun nizamnaməsinə uyğun olaraq rəsmiləşdirilir.

3.25. Hər bir doktoranta görə elmi rəhbərə qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən əməkhaqqı ödənilir.

3.26. Doktoranturada təhsil müddətində doktorant Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurası tərəfindən təsdiq edilmiş fərdi iş planı əsasında fəaliyyət göstərir.

3.27. Doktorantların Azərbaycan Turizm və Menecment Universitetindən başqasına, həmçinin əyani təhsildən qiyabiyə və əksinə keçirilməsi ATMU-nun Elmi Şurasının qərarı ilə ATMU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

3.28. Azərbaycan Turizm və Menecment Universitetində doktorant təhsil müddətində:

- peşə biliklərinə dərindən yiyələnməli;
- müstəqil elmi tədqiqat işi aparmaq vərdişləri əldə etməli;
- elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəməli;
- fərdi iş planını tam yerinə yetirməli;
- ixtisas fənnindən (həmçinin ixtisas uyğunluğu nəzərə alınmaqla, digər fəndən), və xarici dildən doktorluq imtahanlarını verməli;
- elmi tədqiqatlarının nəticələrini əks etdirən məqalələr dərc etdirməli;
- elmi tədqiqatlarının nəticələrini aprobasiya etdirməli;
- elmi tədqiqat işini bitirməlidir.

3.29. Fəlsəfə doktoru imtahanlarının verilməsi iddiaçının dissertasiya müdafiəsinə buraxılması üçün mütləq şərtdir. Fəlsəfə doktoru imtahanları fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısının attestasiyasını əsas tərkib hissəsi olub, dissertasiyanın ilkin müzakirəsinədək verilir və iddiaçının ixtisas üzrə bilik səviyyəsini müəyyən edir.

3.30. Fəlsəfə doktoru imtahanları aşağıdakı fənlər üzrə verilir:

- iddia olunan ixtisas fənni (dissertasiya iki ixtisas üzrə hazırlandığı halda həmin ixtisas fənlərinin hər birindən);
- xarici dil (ingilis, alman və ya fransız dillərindən biri);
- Azərbaycan dili (əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün);
- İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanı iddiaçının seçiminə uyğun olaraq, dissertasiya işinin yerinə yetirildiyi və ya dissertasiya müdafiəsinin keçiriləcəyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində verilir.

3.31. Fəlsəfə doktoru imtahanlarının nəticələri həmin imtahanların verildiyi tarixdən dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır.

3.32. Fəlsəfə doktoru imtahanının keçirilməsi ilə bağlı xərcləri nəzdində imtahan komissiyası yaradılan elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi ödəyir.

3.33. Fəlsəfə doktoru imtahanlarının keçirilmə qaydasını və proqramını Komissiya təsdiq edir və imtahan nəticələrinin qiymətləndirilməsi Komissiyanın müəyyən etdiyi meyarlar əsasında aparılır.

3.34. İddiaçılara hər bir fəlsəfə doktoru imtahanı üzrə onun nəticəsini özündə əks etdirən və Komissiyanın müəyyən etdiyi formada şəhadətnamə verilir.

3.35. Fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi iddiaçısının hazırladığı dissertasiyanın profili üzrə elm sahəsində ali təhsilləri olmadıqda, onlar həmin elm sahəsinin ümum elmi əsaslarından Komissiyanın təsdiq etdiyi proqram əsasında əlavə imtahan verməlidirlər.

3.36. Pedaqoji sahədə fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısının ali təhsil müəssisəsində yiyələndiyi ixtisas üzrə təhsil sahəsində pedaqoji stajı iki ildən az olmamalıdır.

3.37. Doktorant fərdi iş planının yerinə yetirilməsi barədə hər yarımilin sonunda müvafiq ixtisas kafedrasının iclasında hesabat verir.

3.38. Doktorantın hesabatının bir nüxsəsi kafedranın iclasının protokolundan çıxarış ilə bir yerdə Azərbaycan Turizm və Menecment Universitetinin “Elm və innovasiya” şöbəsinə (və ya bu funksiyanı həyata keçirən müvafiq struktura) təqdim edilməlidir.

3.39. Doktorantlar dissertasiya mövzusu üzrə tədqiqat işi aparmaq üçün Azərbaycan Turizm və Menecment Universitetinin elmi işçiləri ilə bərabər kitabxanadan, laboratoriyadan, mövcud avadanlıqlardan istifadə etmək, ezamiyyətlərə, o cümlədən, xarici ölkələrə getmək, ekspedisiyalarda iştirak etmək hüququna malikdirlər.

3.40. Doktorantlar ildə bir dəfədən az olmamaq şərtilə, hər ilinin sonunda Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən qəbul edilmiş qaydalara və bu təlimata uyğun olaraq, attestasiyadan keçməlidirlər. Doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir.

3.41. Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasında hər yarımilin sonunda doktorantların elmi rəhbərlərinin hesabatları dinlənilir, doktorantın elmi rəhbərinin hesabatının bir nüxsəsi elmi şuranın protokolundan çıxarış ilə bir yerdə beş iş günündən gec olmayaraq Azərbaycan Turizm və Menecment Universitetinin “Elm və innovasiya” şöbəsinə (və ya bu funksiyanı həyata keçirən müvafiq struktura) təqdim edilməlidir.

3.42. Azərbaycan Respublikasında dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələbləri və dövri

elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinin (bazalarının) siyahısını Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası müəyyən edir.

3.43. Dissertasiyaların xarici dildə dərc olunmuş əsas elmi nəticələrinin Azərbaycan dilində xülasəsi (dərc edilmiş nəticələrin 20 faizindən az olmamaqla) Komissiyaya təqdim edilməlidir.

3.44. Fəlsəfə doktoru dissertasiyasının nəticələrinə dair iddiaçının ikisi həmmüəllifsiz olmaqla beş, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə humanitar və ictimai elmlər üzrə azı bir, dəqiq və təbiət elmləri üzrə azı iki məqaləsi dərc edilməlidir.

3.45. Müvafiq ixtisaslar üzrə dissertasiyanın mövzusuna uyğun təqdim edilmiş yerli patent dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən Azərbaycan Respublikasının dövri elmi nəşrlərində bir məqaləyə, həmmüəllifsiz olduqda iki məqaləyə bərabər tutulur. Müvafiq ixtisaslar üzrə dissertasiyanın mövzusuna uyğun təqdim olunmuş beynəlxalq patent dissertasiyaların əsas elmi nəticələrini əks etdirən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilən bir məqaləyə, həmmüəllifsiz olduqda iki məqaləyə bərabər tutulur.

3.46. Respublika və ya beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc olunmuş məruzə və tezislərin sayı fəlsəfə doktoru elmi dərəcəsi iddiaçıları üçün azı üç (beynəlxalq elmi tədbirlərin nəticələri üzrə azı biri xaricdə dərc olunmaqla), elmlər doktoru elmi dərəcəsi iddiaçıları üçün isə azı beş (beynəlxalq elmi tədbirlərin nəticələri üzrə azı ikisi xaricdə dərc edilməklə) olmalıdır.

3.47. Respublika və ya beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc olunmuş məruzə və tezislərə, o cümlədən elektron nəşrlərə dair tələbləri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası müəyyən edir.

3.48. Doktoranturada fərdi iş planını müvəffəqiyyətlə yerinə yetirən, doktoranturada təhsil üzrə Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən qəbul edilmiş

tədris planına uyğun olaraq tələb olunan bütün fənlərdən zəruri krediti toplayan və elmi tədqiqat işini bitirən şəxslərə dissertasiyasının kafedrada ilkin müdafiəsinə icazə verilir.

3.49. Dissertasiyanın kafedrada ilkin müdafiəsini müfəffəqiyyətlə başa vuran doktorantın AAK-ın müəyyən etdiyi qaydalara uyğun olaraq "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsinə buraxılır.

3.50. Fərdi planda nəzərdə tutulan müddətdə tədqiqat işi kafedranın müzakirəsindən keçməyən doktorant, təhsil müddəti başa çatdıqdan sonra işlərini ödənişli əsaslarla davam etdirə bilər. Ödənişin məbləği müəyyən olunan komissiya üzvlərinin sayından və elmi dərəcələrindən asılı olaraq müəyyənləşdirilir.

3.51. Azərbaycan Turizm və Menecment Universitetinin rəhbərliyi doktorantlara fərdi iş planında nəzərdə tutulan elmi tədqiqatların yerinə yetirilməsində, zəruri avadanlığın, həmçinin elmi tədqiqat işinin mövzusu ilə bağlı materialların əldə edilməsində daxili imkanları hesabına yardım göstərir.

3.52. Dövlət hesabına əyani təhsil alan doktorantlara qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd ödənilir və hər il məzuniyyət verilir. Fərdi iş planını müvəffəqiyyətlə yerinə yetirən doktorantlara müxtəlif adlı təqaüdlər və ya Azərbaycan Turizm və Menecment Universitetinin daxili imkanları hesabına əlavə ödənişlər təyin oluna bilər.

3.53. Əyani təhsil alan doktorantlar elmi rəhbərin razılığı ilə Azərbaycan Turizm və Menecment Universitetində 0,5 ştat vahidi ilə müvafiq elmi və ya elmi-pedaqoji işlərə cəlb oluna bilərlər.

4. ELMLƏR DOKTORU HAZIRLIĞI ÜZRƏ DOKTORANTURA

4.1. Azərbaycan Turizm və Menecment Universitetində elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental və tətbiqi tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları və əcnəbi və vətəndaşlığı olmayan şəxslər qəbul edilirlər.

4.2. Azərbaycan Turizm və Menecment Universitetində elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul olunmaq istəyən şəxslər:

- Azərbaycan Turizm və Menecment Universitetinin “Elm və innovasiya” şöbəsinin (və ya bu funksiyanı həyata keçirən müvafiq strukturun) müvafiq kafedraya təqdimatı əsasında kafedranın iclasında iddiaçının ərizəsinə baxılır;

- kafedranın iclası Azərbaycan Turizm və Menecment Universitetinin “Elm və innovasiya” şöbəsinin (və ya bu funksiyanı həyata keçirən müvafiq strukturun) rəhbərinin (və ya məsul şəxsin) iştirakı ilə təşkil edilir;

- iddiaçının elmlər doktoru proqramı üzrə müvafiq ixtisasa doktorant qəbul olunması məqsədəmüvafiq hesab olunduqda kafedra müdiri tərəfindən ATMU-nun “Elm və innovasiya” şöbəsinə (və ya bu funksiyanı həyata keçirən müvafiq struktura) təqdimat yazılır. Təqdimata, 4.2-ci maddədə göstərilən sənədlər və kafedra iclasının protokolundan çıxarış əlavə olunur;

- tədris ili ərzində edilən müraciətlər “Elm və innovasiya” şöbəsi tərəfindən ümumiləşdirilir və tədris ilinin sonunda (və ya tələb olunan vaxtda) doktoranturaya illik qəbul və dissertantların təhkimolunma plan yerlərinin sifariş edilə bilməsi üçün Azərbaycan Turizm və Menecment Universitetinin rektoruna məlumat verilir.

4.3. Doktoranturaya nəzərdə tutulan ixtisaslar üzrə illik qəbul və plan yerləri müvafiq qurumlar tərəfindən təsdiq olunduqdan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi vaxtda ATMU-nun “Elm və innovasiya” şöbəsi iddiaçıların sənədlərini ATMU-nun Doktoranturaya Qəbul Komissiyasına təqdim edir.

4.4. ATMU-nun Doktoranturaya Qəbul Komissiyası elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul olunmaq istəyən iddiaçıların sənədləri ilə tanış olduqdan sonra iddiaçılarla müsahibə keçirir və müsbət qərar qəbul etdiyi təqdirdə bu qərarını yazılı surətdə Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasına təqdim edir.

4.5. Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurası “Elmlər doktoru” elmi dərəcəsinə iddiaçı haqqında qəbul komissiyasının təqdimatı əsasında doktoranturaya qəbul, dissertasiyanın mövzusu, fərdi iş planı və elmi məsləhətçisi (məsləhətçilər) haqqında qərar qəbul edir. Həmin Qərar Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsinə uyğun olaraq rəsmiləşdirilir.

4.6. Elmi məsləhətçiyə qanunvericiliklə müəyyən edilmiş qaydada əməkhaqqı ödənilir.

4.7. Zəruri hallarda doktorantlar aparıcı elmi mərkəzlərə (o cümlədən, xaricdə yerləşən) ezam oluna bilərlər. Ezamiyyət xərcləri qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilir.

4.8. Doktorantlar hər ilin sonunda Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasına fərdi iş planının yerinə yetirilməsi haqqında hesabat verir və həmin hesabat əsasında onun doktoranturada təhsilini davam etdirməsi barədə qərar qəbul olunur. Doktorantın təqdim etdiyi hesabatın bir nüxsəsi şuranın protokolundan çıxarış ilə bir yerdə beş iş günündən gec olmayaraq Azərbaycan Turizm və Menecment Universitetinin "Elm və innovasiya" şöbəsinə (və ya bu funksiyanı həyata keçirən müvafiq struktura) təqdim edilməlidir.

4.9. Doktorant Azərbaycan Turizm və Menecment Universitetində təhsil müddəti ərzində dissertasiya işini başa çatdırmalı, aprobasiyasını keçirməli və müəyyən olunmuş qaydada onu müdafiəyə təqdim etməlidir.

4.10. Azərbaycan Turizm və Menecment Universitetində dövlət hesabına əyani təhsil alan doktorantlara qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd ödənilir və hər il məzuniyyət verilir.

4.11. Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil alan doktorantlar Azərbaycan Turizm və Menecment Universitetində müvafiq elmi və ya elmi-pedaqoji işlərə cəlb oluna bilərlər.

5. DOKTORANTURADA ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN MƏQSƏDLİ HAZIRLIĞI

5.1 Doktoranturada yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların məqsədli hazırlığı ali təhsil müəssisələri, elmi və digər təşkilatların təqdimatı ilə onların tabe olduqları müvafiq qurumların sifarişləri əsasında həyata keçirilir.

5.2 Doktoranturada yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların məqsədli hazırlığı ali təhsil müəssisələrinin və elmi təşkilatların doktoranturaya ümumi qəbul qaydalarına müvafiq həyata keçirilir. Məqsədli yerlər doktoranturaya qəbul planında əks olunur.

5.3 Azərbaycan Turizm və Menecment Universitetində "Fəlsəfə doktoru" və "Elmlər doktoru" elmi dərəcələri üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və

vəzifələri doktoranturada yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların məqsədli hazırlığına da şamil edilir.

5.4 Doktoranturada yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların məqsədli hazırlığı prosesində təhsil alan şəxslərin əyani təhsildən qiyabi təhsilə və ya əksinə keçirilməsi yalnız onları göndərən təşkilatın razılığı həyata keçirilə bilər.

6. DİSSERTANTLIQ YOLU ILƏ YÜKSƏKİXTİSASLI ELMİ VƏ ELMI-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

6.1. Azərbaycan Turizm və Menecment Universitetində dissertantlıq yolu ilə yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsil müəssisələrində, elmi təşkilatlarda çalışan mütəxəssislərin istehsalatdan ayrılmamaqla, elmi dərəcənin alınması üçün təhkim olunmaqla, dissertasiya işinin yerinə yetirilməsini təmin edir.

6.2. Azərbaycan Turizm və Menecment Universitetində dissertantlıq yolu ilə “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq hüququna:

- ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis), müvafiq tədqiqat sahəsində) müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər. “Elmlər doktoru” elmi dərəcəsi almaq hüququna “Fəlsəfə doktoru” (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər;
- Dissertant kimi təhkim olunmaq istəyən şəxslər azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalıdırlar;
- müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və seçilmiş ixtisasa uyğun elmi araşdırmalar aparan;
- seçilmiş ixtisas üzrə çap olunmuş elmi işləri (AAK müəyyən etdiyi kriteriyalara uyğun) olan şəxslər malikdirlər;

Dissertantlıq yolu ilə “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) qəbul imtahanı verirlər.

6.3. Ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın elmi şurası müvafiq şöbə, bölmə, kafedra və ya laboratoriyanın təqdimatı və “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq istəyənlər üçün xarici dil fənni üzrə imtahandan aldıqları qiymət əsasında iddiaçının dissertant təhkim olunması, onun dissertasiya mövzusu, fərdi iş planı və elmi rəhbəri (məsləhətçisi) haqqında qərar qəbul edir. Elmi Şuranın Qərarı əsasında ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatın rəhbəri iddiaçının təhkim olunması haqqında əmr verir.

6.4. “Fəlsəfə doktoru” və “Elmlər doktoru” elmi dərəcəsi üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri dissertantlıq yolu ilə təhsil alan şəxslərə (doktorantlara) də şamil edilir.

6.5. Dissertasiyaların mövzularının təsdiq edilməsi və elmi rəhbərlərin təyin edilməsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”yə uyğun olaraq həyata keçirilir

6.6. “Fəlsəfə doktoru” elmi dərəcəsi üzrə dissertantlıq yolu ilə təhsil alan şəxslər müəyyən olunmuş qaydada ixtisas fənnindən və xarici dildən, həmçinin ixtisas uyğunluğu nəzərə alınmaqla, digər fənlərdən də fəlsəfə doktoru imtahanları verirlər.

6.7. “Elmlər doktoru” elmi dərəcəsinin dissertantlıq yolu ilə alınması üçün “Fəlsəfə doktoru” (elmlər namizədi) elmi dərəcəsinin olması əsas şərtdir.

6.8. Dissertantlıq yolu ilə təhsil müddətini başa vuran şəxslər eyni ixtisas üzrə Azərbaycan Turizm və Menecment Universitetində təkrar dissertant olmaq hüququna malik deyillər.

6.9. Doktoranturada tam təhsil müddətini başa vurmuş şəxslər eyni ixtisas üzrə Azərbaycan Turizm və Menecment Universitetində dissertantlıq yolu ilə təhsil almaq hüququna malik deyillər.

6.10. Azərbaycan Turizm və Menecment Universitetinə dissertant kimi təhkim olunmaq istəyən şəxslər:

- bir qayda olaraq, elmi və elmi-pedaqoji iş stajına malik olmalıdırlar;

- dissertant təhkim olunmaq istəyən şəxs tələb olunan sənədlərlə Azərbaycan Turizm və Menecment Universitetinin rektoruna ərizə ilə müraciət edir;

- ATMU-nun" Elm və innovasiya" şöbəsinin (və ya bu funksiyanı həyata keçirən müvafiq strukturun) müvafiq kafedraya təqdimatı əsasında kafedranın iclasında iddiaçının ərizəsinə baxılır;

- kafedranın iclası Azərbaycan Turizm və Menecment Universitetinin "Elm və innovasiya" şöbəsinin (və ya bu funksiyanı həyata keçirən müvafiq strukturun) rəhbərinin (və ya məsul şəxsin) iştirakı ilə təşkil edilir;

- iddiaçının müvafiq kafedra üzrə dissertant təhkim olunması məqsədəmüvafiq hesab olunduqda kafedra müdiri tərəfindən ATMU-nun "Elm və innovasiya" şöbəsinə (və ya bu funksiyanı həyata keçirən müvafiq struktura) təqdimat yazılır. Təqdimata 6.3-cü maddədə göstərilən sənədlər və kafedra iclasının protokolundan çıxarış əlavə olunur.

- Tədris ili ərzində edilən müraciətlər "Elm və innovasiya" şöbəsi tərəfindən ümumiləşdirilir və tədris ilinin sonunda (və ya tələb olunan vaxtda) doktoranturaya illik qəbul və dissertantların təhkimolunma plan yerlərinin sifariş edilə bilməsi üçün Azərbaycan Turizm və Menecment Universitetinin rektoruna məlumat verilir.

6.11. Doktoranturaya nəzərdə tutulan ixtisaslar üzrə illik qəbul və dissertantların təhkimolunma plan yerləri müvafiq qurumlar tərəfindən təsdiq olunduqdan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi vaxtda ATMU-nun "Elm və innovasiya" şöbəsi iddiaçıların sənədlərini ATMU-nun doktoranturaya qəbul komissiyasına təqdim edir.

6.12. ATMU-nun doktoranturaya qəbul komissiyası dissertant təhkim olunmaq istəyən iddiaçıların sənədləri ilə tanış olduqdan sonra iddiaçılarla müsahibə keçirir və müsbət qərar qəbul etdiyi təqdirdə bu qərarını yazılı surətdə Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasına təqdim edir.

6.13. Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurası qəbul komissiyasının təqdimatı əsasında iddiaçının müvafiq kafedraya dissertant təhkim olunması, onun dissertasiya mövzusu, fərdi iş planı və elmi rəhbəri (məsləhətçisi) haqqında Qərar qəbul edir. Elmi Şuranın qərarı əsasında

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru iddiaçının təhkim olunması haqqında əmr verir.

6.14. Azərbaycan Turizm və Menecment Universitetində “Fəlsəfə doktoru” və “Elmlər doktoru” elmi dərəcəsi üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri dissertantlıq yolu ilə təhsil alan şəxslərə (doktorantlara) də şamil edilir.

6.15. Dissertantlıq yolu ilə təhsil alan hər bir şəxsin elmi rəhbərlərinə və məsləhətçilərinə qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən əməkhaqqı ödənilir.

6.16. Dissertasiya işini tamamlamaq məqsədi ilə fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə dissertant təhkim olunmuş şəxslərə Elmi Şuranın Qərarına əsasən iş yerindən qanunvericilikdə müəyyən edilmiş müddətə yaradıcılıq məzuniyyəti verilir.

7. ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN DOKTORANTURADA VƏ DİSSERTANTLIQ YOLU ILƏ TƏHSİL ALMAQ HÜQUQU

7.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Turizm və Menecment Universitetində doktoranturada və dissertantlıq yolu ilə təhsili Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir.

7.2. Azərbaycan Turizm və Menecment Universitetində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsili ödənişli əsaslarla aparılır. İllik təhsil haqqı təhsilin xüsusiyyətlərinə uyğun olaraq ATMU-nun təqdimatı əsasında tabe olduğu qurumlar tərəfindən təsdiq edilir. Müstəsna hallarda ali təhsil müəssisələri və elmi təşkilatlar tabe olduqları qurumların razılığı əsasında ödənişsiz qəbul həyata keçirə bilərlər.

7.3. Xarici dövlətlərdə təhsil almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün ali təhsil haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti və diplomun tanınması haqqında şəhadətnamə Azərbaycan Turizm və Menecment Universitetinin Doktoranturaya Qəbul Komissiyasına təqdim edilməlidir.

7.4. Azərbaycan Turizm və Menecment Universitetində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fəlsəfə doktoru üzrə doktoranturada və dissertantlıq yolu ilə qəbul zamanı və təhsil müddətində Dövlət İmtahan Mərkəzində (DİM) “Azərbaycan dili” fənnindən qəbul və minimum doktorluq imtahanı verirlər.

8. DOKTORANTURA VƏ DİSSERTANTURA ÜZRƏ İXTİSASLAR VƏ ONLARIN ŞİFRİ

Sıra	İxtisaslar	İxtisas şifri
1.	İqtisadi fəaliyyət növləri	5304.01
2.	Ümumi iqtisadiyyat	5308.01
3.	Müəssisələrin təşkili və idarə olunması	5311.01
4.	Sahə iqtisadiyyatı	5312.01
5.	Təhsilin təşkili və planlaşdırılması	5802.01
6.	Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası	5402.01
7.	Beynəlxalq münasibətlər	5901.01
8.	Beynəlxalq hüquq; insan hüquqları	5603.01
9.	Kulturologiya və onun ümumi məsələləri	6219.01
10.	Muzeyşünaslıq	6220.01
11.	Sosial dəyişiklik və inkişaf	6307.01
12.	Sosial problemlər	6310.01
13.	Dövlət idarəçiliyi	5909.01
14.	German dilləri	5708.01

9. DOKTORANTURA VƏ DİSSERTANTURA ÜZRƏ TƏLƏB OLUNAN SƏNƏDLƏR

Fəlsəfə doktorluğu hazırlığı üzrə doktorantura və dissertantura

9.1. Azərbaycan Turizm və Menecment Universitetində Fəlsəfə doktorluğu üzrə doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (Azərbaycan Turizm və Menecment Universitetinin rektorunun adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;

- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış (Dissertant kimi qəbul olunmaq istəyən şəxslər azı iki il elmi və ya elmi-pedaqoji iş stajına dair sənəd təqdim etməlidirlər);
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertantura

1.2. Azərbaycan Turizm və Menecment Universitetində elmlər doktoru proqramı üzrə doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (Azərbaycan Turizm və Menecment Universitetinin rektorunun adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı;
- «Fəlsəfə doktoru» və ya «Elmlər namizədi» elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərinin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

1.3. Sənədlərin qəbulu forması, qaydaları, qəbul planı və imtahanların keçirilmə müddəti haqqında kütləvi informasiya vasitələrində Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən müvafiq elan verilir.